# ***Görkəmli şəxslər Ziya Bünyadov haqqında***



Ziya Bünyadovun xidmətləri çoxdur və onun ən böyük xidmətlərindən biri də ondan ibarətdir ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində o, bir daha böyük alim kimi, tədqiqatçı kimi Azərbaycanın açılmamış arxivlərinə bir daha getdi, o arxivlərdən Azərbaycan tarixinin XX əsrə aid səhifələrini açdı, tədqiq etdi, öz kitablarında, dövri mətbuatda yazılar verdi və beləliklə də, əgər əvvəllər Azərbaycan tarixinin orta əsrlərə aid çox mühüm dövrlərini elmi əsərlərində işıqlandırdısa, açdısa, göstərdisə, son illərdə özünü buna həsr etdi. O cümlədən, ilk Azərbaycan Demokratik Respublikasının yaranması ərəfəsində gedən prosesləri də, o dövrü də doğru-düzgün tədqiq edənlərdən biri də Ziya Bünyadovdur.



⁘ ⁘ ⁘

O, öz varlığı ilə elə bir insan idi ki, böyük, şərəfli həyat yolu ilə elə bir yüksək səviyyəli şəxsiyyət adı almışdı ki, onun haqqında nə qədər çox desək də, yenə də tam qiymətini verə bilməyəcəyik.

⁘ ⁘ ⁘

Azərbaycan xalqının milli mənafelərini qorumaq nöqteyi-nəzərindən və tarixi həqiqəti bugünki nəsillərə, dünya tarixinə çatdırmaq baxımından Ziya Bünyadovun əsərləri əvəzsizdir.

***Ümummilli Lider***
***Heydər Əliyev***



Akademik Ziya Bünyadov zəngin elmi yaradıcılıq yolu keçmiş, respublikamızda şərqşünaslıq və tarix elmlərinin yeni mərhələyə yüksəlməsinə, ümumən, elmin təşkili işinə böyük əmək sərf etmişdir. Geniş erudisiyalı alim mənbəşünaslıq və orta əsrlər dövrü üzrə professional hazırlığa malik mütəxəssislərdən ibarət elmi məktəb formalaşdırmışdır.

⁘ ⁘ ⁘

Ziya Bünyadovun fundamental araşdırmalarında orta əsr müsəlman Şərqi dövlətlərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatı dərin təhlillər əsasında

dolğun əksini tapmışdır. İlk dəfə onun elmi ictimaiyyətə çatdırdığı və dilimizə mükəmməl surətdə çevirərək əhatəli müqəddimə və şərhlərlə nəşr etdirdiyi bir çox nadir mənbələr bu gün də davamlı istinad olunan ən mötəbər qaynaqlar sırasındadır. Ziya Bünyadov Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə aparmış, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçilmişdir.

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



Ziya, sənin adın sönməz bir ulduzun ziyası kimi həmişə insanların qəlbini və təfəkkürünü nurlandıracaq. Fəxr edirəm ki, sənin kimi məğrur, heç kəsə əyilməyən azad düşüncəli, qorxmaz, saf və istedadlı bir alim, əsl kişi mənim həyat yoldaşım olub. Vətəninə və insanlığa məhəbbətinlə Ziya Bünyadov adına hər yerdə, hər zaman qəhrəman şərəfi qazandırmısan.

***həyat yoldaşı***
***Tahirə Bünyadova***

Onu haqlı olaraq "bilik xəzinəsi" adlandırırdılar. O, orta əsrlər və mənbəşünaslıq üzrə elmi məktəbin banisi idi.

***Azərbaycan Respublikası***
***Milli Məclisinin deputatı***
***Ziyad Səmədzadə***





Olduqca zəhmətkeş idi. Onun əqli qabiliyyəti məni elə valeh edirdi ki, özlüyümdə onu ən müasir kompüterə bənzədirdim.

⁘⁘⁘

İllər ötəcək, Azərbaycan xalqının böyük oğlu, ölkəmizin cəfakeş vətəndaşı Ziya Musa oğlu Bünyadovun əziz xatirəsi qədirbilən xalqımızın yaddaşında əbədi yaşayacaqdır. Onun

insanlara bilik, ziya bəxş edən ölməz əsərlərindəki ruhu qəlbləri təlatümə gətirərək, hər kəsi vətəndaşlıq borcuna – Vətəni sevməyə, ona vicdanla və sədaqətlə xidmət etməyə çağıracaq.

***AMEA-nın Akademik Z. M. Bünyadov adına***
***Şərqşünaslıq İnstitutunun baş direktoru,***
***millət vəkili***
***Gövhər Baxşəliyeva***



Ziya müəllim bir qəhrəman olmaqla yanaşı, qəhrəmanlıq tariximizi araşdırırdı və bu tarixi qəhrəmancasına müdafiə edirdi.

***Xalq şairi, millət vəkili***
***Sabir Rüstəmxanlı***

Möhtərəm Prezidentimizin özünün dediyinə görə, o, Ziya Bünyadova xüsusi münasibət bəsləyirdi. Bu hüququ müharibə qəhrəmanı və akademik öz fəaliyyəti, əməlləri, həyatı ilə qazanmışdı. Heydər Əliyevin apardığı iclaslarda, təkcə Ziya Bünyadovun siqaret çəkmək üçün zaldan çıxmaq ixtiyarı vardı, yeri gələndə, nə qədər acı olsa da, həqiqəti çox üzə deməyi bacarırdı. Bununla belə, başqa yerlərdə coşğun emosional ibarələr işlədən Ziya Bünyadov Heydər Əliyevin yanında heç vaxt əndazəni aşmırdı...

***Milli Məclisin keçmiş deputatı***
***Sirus Təbrizli***



Allah Ziyanı ən dəyərli elmi əhəmiyyətli əsərləri ilə geniş oxucu kütləsinin və tədqiqatçı alimlərin əbədi qida mənbəyinə çevrilməsi üçün yaratmışdı. İlahi Ziyanı yaratmışdı ki, tarixi həqiqətlərə istinad edərək, tarixi təhrif edən qatı millətçi erməni psevdoalimlərinə sübut etsin ki, onlar vətənsizdirlər, indiki Ermənistan ərazisi onlara mənsub deyil. Ziya bu elmi müddəalarına görə, erməni millətçilərinin daimi təqibinə, onların hədə-qorxusuna məruz qalmışdır. Ziya Bünyadov erməni ekstremistləri ilə həmişə təkbətək vuruşmuşdur.

***akademik***
***Budaq Budaqov***



Çox maraqlı, hər adama qismət olmayan səmərəli ömür yaşadı Ziya müəllim. Mənə elə gəlir ki, onun həyatının bircə anı da hədər getmədi, boş işə sərf olunmadı. Məqsədyönlü yaşadı, ömrünün uşaqlığın hərbə qarışdığı ilk üçdə birindən sonrakı qalan hissəsini yazdı, yazdı və yenə də yazdı; hər adamın oxuya bilmədiyi becit xətti ilə minlərlə cansız vərəqə həyat verdi. Onun canlandırdığı təkcə bu vərəqlər olmadı. O, Cavanşiri diriltdi, Babəki, Eldənizlər sülaləsinə mənsub Azərbaycan Atabəylərini xalqına sevdirdi, bədxah qonşularımızın bəd əməllərini açıqlamaqla həmvətənlərinin gözlərini açdı, 37-nin qurbanlarına öz əsəri ilə abidə ucaltdı, tariximizi özümüzə qaytardı.

***akademik***
***Nailə Vəlixanlı***



80-ci illərin sonu, "yenidənqurma" ab-havasının hökm sürdüyü, Qarabağ hərəkatının yüksəldiyi bir dövr idi. Moskvadan Bakıya tətilə gəldikdə həm ümumiyyətlə cəmiyyətin, həm də İnstitutumuzun əhval-ruhiyyəsinin necə də gözlə görünən dərəcədə dəyişdiyinin şahidi olurdum. İlk işim Ziya müəllimin iş otağına gedib onunla görüşməyim və Moskvadakı yeniliklər haqqında onun suallarına cavab verməyim olurdu. Bu vaxtlar Şərqşünaslıq İnstitutu Qarabağ məsələsində ermənilərin yalan makinasına qarşı antitəbliğat mərkəzinə çevrilmişdi. Azərbaycanın rəsmi partiya və dövlət orqanlarının çaşqınlıq və susqunluq içində, iflic halında olduğu bir vaxt Elmlər Akademiyası ictimai rəyi səfərbər edən bir mərkəz halına gəlmişdi. Ziya müəllimin baş redaktoru olduğu Akademiyanın "Xəbərlər" jurnalı tamamilə Qarabağ və erməni məsələsinə aid tarixi sənədlərin çapına başlamışdı. Mübaliğəsiz deyə bilərəm ki, o dövrdə jurnalın Ziya müəllimin rəhbərliyi ilə gördüyü iş Azərbaycanda milli oyanış hərəkatına tarixi şüurun bərpasına edilən ən böyük xidmətdir. Ümid edirəm ki, zaman bu xidmətin qiymətini verəcək.

***akademik***
***Şahin Mustafayev***



Bir xalqa əməlilə baş ucalığı gətirən, tariximizin baş yazarı olan, hünərilə bir orduya bərabər olan Ziyamızı tez itirdik. Sağlığında nə qədrini bildik, nə qoruya bildik. Ziya bizə hələ çox lazım idi. İstər döyüş meydanında, istər elm dünyasında...

⁘ ⁘ ⁘

İnsan yer üzünün əşrəfidi, Ziya əşrəflər əşrəfi. Kişilər köçər, kişilik qalar bu dünyada. Ziya kişiliyin rəmziydi. Qəhrəmandı, hünərdi, zəfərdi. Ziya qələbəydi, təntənəydi. Alim xalqın fəxri, Ziya fəxrlər fəxri. Qeybə çəkilsə də, xalqımızın qəlbində heykəlləşdi, ölməzliyə qovuşdu, əbədiləşdi Ziyamız...

***akademik***
***Teymur Bünyadov***



Elmə yüngül və möhtəkir baxışların düşməni olan akademik Ziya Musa oğlu Bünyadov özündə əsl alimə xas olan: böyük əməksevərlik və təmənnasızlıq, daxili təmizlik və fövqəladə vicdanlılıq, özünə və başqalarına qarşı eyni tələbkarlıq, sələflərinə və həmkarlarına qarşı dəyişməz qayğıkeşlik və diqqət kimi yüksək keyfiyyətləri təcəssüm etdirirdi.

***AMEA-nın müxbir üzvü***
***Mahmud İsmayılov***



Ziya Bünyadov xalqımızın düşmənlərinin qarşısında birmənalı olaraq həmişə düzgün mövqe tutması ilə seçilirdi.

***professor***
***Yaqub Mahmudov***

Bütün həyatını xalqına həsr etmiş, istər hərb, istərsə də siyasi həyatda xalqının mənafeyini hər şeydən, öz həyatından da üstün tutan, şeyxlər nəslinə mənsub bir şəxsə əl qaldırmaq ən alçaq, rəzil adamların işidir. Onların bəlasını Tanrı özü verəcək. Ziya müəllimi tanıyanlar, onun tələbələri, yetirmələri akademikin yoxluğunu hiss edib kədərlənsələr də, müəllimlərinin işini dönmədən və layiqincə davam etdirirlər.

***tarix elmləri doktoru, professor***
***Vaqif Piriyev***

Akademik Ziya Bünyadov ermənilərin “intellektual təcavüzü”nə sinə gərən, ona layiqli, mərdanə cavab verən və bununla da, elmimizin şöhrətini aləmə yayan görkəmli alim idi. Məhz bunun nəticəsidir ki, düşmənlərimiz sərsəm niyyətlərini elmi, tarixi baxımdan əsaslandırmağa cəhd göstərdikdə böyük çətinliklərlə qarşılaşdılar və bu sahədə heç nəyə nail ola bilmədilər. Bununla əlaqədar olaraq akademik Ziya Bünyadovun cəsarətli yazılarının, məntiqi mülahizələrinin əhəmiyyəti minnətdarlıq hissi ilə qeyd edilməlidir.

***tarix elmləri doktoru, professor***
***Məmmədkərim Quliyev***

Ziya Bünyadov respublikamızda haqq və ədalətin bərqərar olmasına var qüvvəsilə çalışırdı. O, ölkədə əliəyriliyin, rüşvətxorluğun baş alıb getdiyini, bir qrup kələkbazın eyş-işrət içində yaşadığını, ailəsinin qulluğunda bir neçə, hətta xarici maşınların olduğunu, əksəriyyətin, zəhmətlə yaşayan insanların isə külfətini quru çörəklə və günəbaxan yağı ilə güclə dolandırdığını, kadrların yüksək vəzifələrə biliyinə, bacarığına, sənətinə, mənəvi keyfiyyətlərinə görə deyil, dostluğa, tanışlığa, yerlibazlığa, qohumbazlığa və hansısa digər səbəblərə görə seçildiyini, 8-10 siniflik savadı olub-olmayan adi milis işçilərinə elmlər doktorlarından, hətta akademik-lərdən çox maaş verildiyini görəndə, biləndə və eşidəndə daha da əsəbləşirdi. Fikirlərini qorxmadan, çəkinmədən, açıq surətdə televiziya ekranlarından, radio dalğalarından bildirir, elmi və digər yığıncaqlardakı çıxışlarında belə hallara qarşı barışmaz olmağı tövsiyə edirdi.

***filologiya elmləri doktoru***
***Tahir Məhərrəmov***



Ziya Bünyadov – insan kimi, Ziya Bünyadov – vətəndaş kimi. Bütün bunlar nə vaxtsa dərin tədqiqat mövzusu olacaq. Onsuz da araşdırılası çox şey var. Məsələn, akademik Ziya Bünyadov kimlərə mane olurdu? Millət vəkili Ziya Bünyadov kimin göstərişiylə qətlə yetirildi? Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovu kim vurdu? Alman gülləsindən, daşnaqların ölüm hökmündən yaxa qurtaran insan öz evinin kəndarında ölməyə, daha doğrusu, öldürülməyə bilərdimi? Bəlkə də...

***jurnalist***
***Etibar Babayev***



Həyatda olduğu kimi, elmdə də qorxusuz-hürküsüz sözün düzünü deməkdə, həqiqəti cəsarətlə açmaqda pərgar idi, ədaləti hər şeydən üstün tutur və onun son nəticədə qələbəsinə inanırdı. Bu yerdə Eynişteynin müdrik kəlamı düşür yada: "Ədalət əvvəl-axır qələbə çalır, lakin çox vaxt buna bir ömür yetmir. Biri öldürəndən sonra o, öz sözünü sübut edir.

***yazıçı***
***Əleviyyə Babayeva***

Bir zaman Ziya Bünyadova verdiyim sual hələ də qulaqlarımda səslənir və sualdan ötrü çox xəcalət çəkirəm.

-Sən, tarixçi alim, professor Allaha inanırsan?

Ziya müəllimin cavabı çox qısa oldu: Qulağında sırğa olsun, Yaradanın əleyhinə getmək olmaz!

***yazıçı-jurnalist***
***Hacı Firuz Əhmədli***